Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Mən Sülhə səs verirəm

**21 sentyabr Beynəlxalq Sülh Gününə həsr olunmuş mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Mən Sülhə səs verirəm!:** 21 sentyabr Sülh Günü haqqında topladığımız məlumatı oxuculara çatdırmaq məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.N.Məcidova; ixt.red. və burax. məsul Ş.Qəmbərova; red. K.Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

21 sentyabr dünyada Beynəlxalq Sülh Günüdür. Bu gün BMT tərəfindən 1981-ci il 21 sentyabr tarixində təsis edilib.

Böyük mövzu olan Sülh mövzusu bu gün torpaqlarımızın 20 faizi işğal altında olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, ən sülhsevər xalq olan, dünyanın tolerant ölkəsinin vətəndaşları ermənilərin ölkəmizə təcavüzü nəticəsində öz vətənlərindən didərgin düşüb, uzun illər qurduqları ev-eşiklərindən məcburi məhrum olublar. Bu müharibə onlara həm maddi, həm də mənəvi zərbə vurmuşdur. Minlərcə azərbaycanlı amansızcasına qətlə yetirilmiş, gedən döyüşlərdə həlak olmuşlar. Bu illərdə Azərbaycan hər zaman münaqişəni sülh yolu ilə həll etmək istəmişdir. 1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalandı və ölkədə sabitliyə nail olundu. 21 sentyabr Beynəlxalq Sülh Günü münasibəti ilə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxabxanası tərəfindən hazırlanan vəsait iki hissədən ibarətdir.

I hissədə sülh aylığı çərçivəsində keçiriləcək tədbirlər haqqında məlumat verilir. II hissədə vəsait ədəbi-bədii gecə ilə yekunlaşır.

# Giriş

Bu gün dünyada yüz milyonlarla insanın dərin ürək çırpıntısı, böyük ümid, şirin arzularla təkrar etdiyi müqəddəs bir söz vardır – Sülh!

Bu sözün böyük mənası qanlı müharibələrin bütün iztirab və ağırlıqlarını görmüş insanlar üçün əzizdir, qiymətlidir. Bu söz ana sözü kimi sadə, həyat sözü kimi şirin, azadlıq sözü kimi əzəmətli və yüksəkdir. Dərisinin rəngindən, dini etiqadlarından asılı olmayaraq, yüz milyonlarla insan sülhü qorumaq, yeni qanlı müharibələrin qabağını almaq üçün birləşməlidir. Bu birlik hər yerdə müharibə qızışdıranları ifşa etmək, xalqların əmin- amanlıq içində yaşamasını, dövlətlər arasındakı mübahisəli məsələlərin danışıq yolu ilə, sülh yolu ilə həll olunmasını təmin etmək əzmində olan adamların birliyidir.

Yaşayıb yaratmaq, xalqın maddi və mənəvi sərvətlərini artırmaq, namuslu zəhmətinin bəhrəsini nəsillərə yadigar qoymaq – nəcib insan arzusu, şərəfli insan duyğusu, adi insan borcudur.

Yer üzündə həyatı gündən-günə, ildən-ilə gözəlləşdirən, böyük səadət, böyük sevinc, saf məhəbbət kimi həyat nemətlərini yaradan elə insanın özüdür. Bu sevinc ayrı- ayrı insanların sevinc və səadəti ilə həmahəng olsa, bir o qədər mənalı, uzunömürlü və dərin olur.

İnsan səadətinə düşmən olanlar bəxtiyarlığı ancaq hər cür gözəllik və nəcabətdən uzaq olan heyvani nəşələrində görənlər, insan nəslinin ən eybəcərləşmiş, insan, sima və xasiyyətlərini itirmiş bir zümrəsidir. Böyük bir insan adını ləkələyən belə insanlar dünyanı yeni müharibələrlə qanlı dalğalarda çalxalamaq istəyirlər. Onlar milyonların həyatı bahasına mənfəət, qan bahasına mənfəət, göz yaşları, iniltilər iztirablar, fəryad, səfalət sərgərdanlıq bahasına mənfəət, gəlir qazanc istəyirlər. Onlar insan səadətinə düşmən, insan sevincinə yad, gözəl insan arzusunun amansız yağısıdırlar.

Bu gün balalarımızın səadət, işıq və sevinc dolu dünyasını vətənimizin hər yerində hiss edən prezidentimiz dünyada sülhün qorunması üçün daha da mətanət, fədakarlıq və böyük qüvvə ilə çalışır.

XX əsrin sonlarından müstəqilliyə qədəm qoysaq da Azərbaycan xalqı azad, demokratik yol ilə irəliləyərək bütün dövlətlər və xalqlar ilə sülh və dostluq şəraitində yaşayır. NATO, BMT, ATƏT və s. kimi beynəlxalq təşkilatlar dünyada sülhü nizama salmaq, dünya müharibələrinin qarşısını almaq üçün Beynəlxalq sülhsevər təşkilat olaraq yaradılmışdır. Ancaq dünyada tam sakitliyi heç nə ilə bərqərar etmək mümkün olmayıb. Ən azından bu təşkilatlar sülhsevər təşkilat olaraq müharibə ocaqlarında yardımçı kimi öz missiyalarını yerinə yetirirlər.

İllərlə Azərbaycanda da müxtəlif vaxtlarda münaqişələr olmuş, dinc əhali amansızlıqla qətlə yetirilmişdir. Keçən əsrdə qarşılaşdığımız 1918-ci il mart soyqırımı və 1992-ci il Xocalı faciəsi tariximizin qanlı səhifələrindən biridir. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Səlyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın tariximizdə dəhşətli iz buraxdı. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş on minlərlə insan itkin düşmüşdür. Azərbaycan Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırım Günü kimi bu gün də qeyd olunur.

Xocalı soyqırımı isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik

azərbaycanlılara qarşı baş vermiş soyqırımdır. Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir. Bu soyqırım zamanı Azərbaycan xalqı yüzlərlə şəhid vermişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutuldu. Nəticədə fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992- ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.

## Keçiriləcək tədbirlər

Tarix boyu aqil adamlar topla, silahla deyil, elm və zəka ilə silahlanmağı üstün tutmuşlar. Bunun üçün insanları sülh yoluna işıqlı ziyalı yoluna cəlb etmək üçün mübarizə aparmışlar. 1993-cü ildən hakimiyyətə gələn Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev də bu yolda atəşkəsə nail olmuşdur. 2000-2010-cu illər isə Prezidentin fərmanı ilə – Sülh-Mədəniyyət ili kimi elan edilmişdir. Sülh və mədəniyyətimizin inkişafının göstəricisi kimi qədim alətimiz olan tar xalçaçılıq sənəti, qədim musiqi alətimiz sayılan saz və s. Fransanın Paris şəhərində YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısında müzakirə olunaraq bu siyahıya daxil edilib. Bu yolda kitabxanalarında qarşısında böyük vəzifələr durur. Bu öhdəlikləri yerinə yetirmək üçün kitabxanada kütləvi tədbirlərin müxtəlif formalarından istifadə etmək olar. Kitab sərgiləri uşaq kitabxanalarında əyani təbliğatın geniş yayılmış formalarından biridir. Sərgi başlıqlarını – "Yurdda sülh, cahanda sülh", "Göyərçinim – sülh quşum", "Kəssə hər kim tökülən qan izini", "Sülh içində yaşa" və s. kimi verə bilərik. Sərgidə tariximizdən bildiyimiz sülh müqavilələri və onlar haqqında məlumatları əyani şəkildə təqdim edə bilərik.

1. **Amasya sülh müqaviləsi** – Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında sülh müqaviləsi. 29 mart 1555-ci ildə bağlanıb. Müqavilə iki dövlət arasında Çaldıran döyüşü (1514) ilə başlayan uzunmüddətli müharibələrin birinci hissəsini yekunlaşdırıb. Sülh razılaşmasına əsasən Qərbi Gürcüstan – İmeretiya, Meqreliya və Quriya çarlıqları, indiki Ermənistanın qərb hissəsi Osmanlının, Şərqi Gürcüstan – Mesxiya, Kartli, Kaxeti, Qərbi Azərbaycan (indiki Ermənistanın əsas hissəsi) Səfəvilərin

ixtiyarına keçib. Osmanlı sultanı I Süleyman və Səfəvi şahı I Təhmasib arasında əldə olunan sülh uzun sürmədi və 1578-ci ildə yeni müharibə (1590-cı il İstanbul sülhünədək) başlandı.

2. **Bağdad sülh müqaviləsi** – Səfəvilər və Osmanlı dövləti arasında bağlanan sülh müqaviləsi. 6 yanvar 1733-cü ildə bağlanıb. 1733 – Səfəvi ordusu Bağdad yaxınlığında baş verən döyüşdə Osmanlı qoşunlarını məğlub edib. Tərəflər arasında imzalanan Bağdad sülh müqaviləsinə əsasən Osmanlı dövləti 1723-1724-cü illərdən başlayaraq ələ keçirdiyi bütün Səfəvi torpaqlarını geri qaytarmağa razılıq verib. Osmanlı dövləti həmin dövrdə Şimali Azərbaycanın böyük hissəsini (Xəzəryanı ərazilərdən savayı), habelə Təbriz, Ərdəbil, Marağa, Xoy və digər Cənubi Azərbaycan ərazilərini nəzarətə götürmüşdü. 1732-ci ildə bağlanan Kirmanşah müqaviləsi ilə Səfəvilər Cənubi Azərbaycan ərazilərini geri ala bilmişdi.

3. **Gülüstan müqaviləsi** – 1813- cü ilin 12 oktyabr tarixində Rusiya İmperiyası ilə Qacar İran dövləti arasında imzalanmış və tarixi Azərbaycanın ərazisini Rusiya ilə İran arasında bölən birinci müqavilə. Çar Rusiyası Osmanlı İmperiyası ilə 1812-ci ilin yayında imzaladığı Buxarest müqaviləsində Osmanlı İmperiyası rusların Qafqazı işğalını tanıyır, bu torpaqlara iddiasından əl çəkir. 1812-ci ildə Napaleonun Rusiya hücumundan dəyərlənməyə çalışan İran vəliəhdi Abbas Mirzə Rusiyanın işğal etdiyi Azərbaycan xanlıqlarına hücum etsə də, general P.Kotlyarevski bu hücumları dəf edir və bölgədə hərbi-siyasi üstünlük qazanır. Bu hallar İngiltərəni bərk narahat edir və onların təkidi ilə İran Rusiya ilə müqavilə imzalamaq qərarına gəlir. 1813-cü ilin 12 oktyabrında Gülüstan kəndində birinci Rusiya-İran müharibəsinin qurtarmasını bildirən müqavilə imzalanır. Bu müqavilə tarixə imzalandığı yerin adıyla Gülüstan müqaviləsi kimi daxil olur.

Müqavilәni İran tәrәfdәn şahın vәkili Mirzә Əbdülhәsәn xan, Rusiya tәrәfdәn isә Ratişev imzalayır. Bu sülh müqavilәnin şәrtlәrinә әsasәn Şimali Azәrbaycan xanlıqlarından İrәvan vә Naxçıvanı çıxmaq şәrtilә yerdә qalan bütün xanlıqlar (Talış, Şirvan, Quba, Bakı, Gәncә, Qarabağ, Şәki) Rusiyaya verilir. 2013-cü ilin 12 oktyabrında Gülüstan müqavilәsinin 200 illiyi Dәrbәnddә qeyd olunmuşdur.

**Gülüstan sülh müqavilәsi; Amasiya**



Sәrgidә Sülh mövzusuna aid qәzet materialları BMT- nin fәaliyyәti ilә bağlı mәlumatları vә şәkillәri onların müharibә bölgәlәrinә etdiklәri yardımları verә bilәrik.



**Sərgidə veriləcək sitatlar:**

Heç bir zəfər məqsəd deyildir. Zəfər ancaq özündən daha böyük bir məqsədə çatmaq üçün lazım olan ən mühüm vasitədir.

**Mustafa Kamal Atatürk,**
*Türkiyə Respublikasının 1-ci prezidenti*

Müharibənin qazanc və ziyanını hesablasaq, görərik ki, qazandığımız qələbə verdiyimiz itkilərlə müqayisədə heç nədir.

**Corc Bayron,**
*ingilis şairi*

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

**Hüseyn Cavid,**
*yazıçı-dramaturq*

İnsanların sülh istəyi müharibə qorxusundan doğur.

**Uinston Çörçill**
*Britaniyanın Baş Naziri*

Hərbi elmlərin çiçəklənməsi yalnız sülh şəraitində mümkündür.

**D.Aminado,**
rus şairi

Müharibənin son məqsədi sülhdür.

**Aristotel,**
*yunan filosofu*




Dövrümüzün uşaq və yeniyetmələrini qan tökmək, əzab vermək, zorakılıq prinsipləri ilə deyil, qayğı ilə, sevgi ilə böyüdərək onlarda sülhsevərlik prinsipləri ilə tərbiyə etmək lazımdır. Kitabxanada bu məqsədlə tez-tez uşaqlarla söhbətlər aparılır, müxtəlif kitab icmalları keçirilir. Söhbət zamanı xain düşmənin məkrini, onların öz övladlarını belə düşünməyərək tamahları ucbatından etdikləri torpaq iddiası, müharibələr zamanı günahsız uşaqların öldürüldüklərini, bugünkü müharibə şəraitində yaşamağımızdan, minlərlə insanın öz yurd- yuvasından qaçqın düşməsindən danışmaq olar. Bu gün sülh şəraitində yaşasaq da nə vaxtsa o torpaqlara qayıda bilməyimiz üçün onların üstünə düşən vəzifələrdən danışmaq, vətənə necə layiqli övlad olmalarından söhbət açmaq olar. Söhbəti elə qurmaq lazımdır ki, onlar müharibənin dəhşətlərini, xain düşmənin iç üzünü təsəvvüründə canlandıra bilsinlər. Özlərini sabahkı Vətəni qorumaq üçün hazırlasınlar.

Bundan başqa uşaqların sülh və müharibə mövzusunda

təfəkkürünü ifadə edən rəsm müsabiqəsi keçirmək olar. Bu zaman müharibə və ya sülhün uşaqların təfəkküründə necə əks olunduğunu bilmək üçün onlara sərbəst şərait yaratmaq lazımdır.




Kitabxanada əlfəcin və bukletlərin hazırlanaraq oxuculara paylanması əyani təbliğat vasitələrindən biridir. Beləki sülh mövzusunda bukletlər üçün ədəbiyyat siyahısı seçib qeyd etməklə oxuculara bu mövzuda kömək edə bilərik.

Orta yaş qrup oxucuları ilə fərdi söhbətlər, sual-cavab gecələri keçirmək məqsədəuyğundur. Sual-cavab gecəsində aşağdakı sualları verə bilərik.

1. Sülh deyəndə nə başa düşürsünüz?
2. Sülh istəyirsiniz ya müharibə?
3. Sülhü necə bərqərar etmək olar?
4. Sülh haqqında hansı əsərləri oxumusunuz?
5.Sülh quşu hansı quşdur?
6.Hansı sülhməramlı beynəlxalq təşkilatları tanıyırsınız?

Uşaq və yeniyetmələrlə söhbət apararkən, xüsusilə dil sadəliyinə, yaş xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. Yuxarı yaşlı oxucularla isə biblioqrafik icmallar, kitabın müzakirəsini

keçirmək olar. Xarici ədəbiyyatdan olan Lev Tolstoyun – Hərb və Sülh romanının icmal şəklində təşkil edə bilərik. Roman IV cilddə olduğundan uzun uzadı danışmaq deyil, əsas detalları əsrdən götürməklə oxuculara çatdırmaq lazımdır.

Kitabxanada təşkil edilən ədəbi-bədii gecələr də özünəməxsus yer tutur.

"Göyərçinim, sülh quşum" adlı ədəbi-bədii gecəyə məktəblilər, müəllimlər, tələbələr, ziyalılar dəvət edilir.

## Ədəbi-bədii gecə

*(Səhnə sülh mövzusuna aid rəsmlərlə, ağ göyərçinlərlə bəzədilir. Aparıcılar səhnəyə gəlir.)*

**I** Aparıcı: Sülh! Bu sözün dəyərini, bəlkə də, hər birimiz anlamırıq, lakin düşünməyə dəyər. Biz bu dünyada yaşayırıq, onun bizə bəxş etdikləri ilə qidalanır, gözəllikləri ilə həyatımızı rəngarəng edirik, lakin təşəkkür olaraq əvəzində ona nə bəxş edirik?!

**II Aparıcı:** Ümumiyyətlə, necə ki, bir-birimizə qarşı münasibət bəsləyiriksə, eynisini də yaşadığımız planetə qarşı edirik. Boş eqoizmdən qurtulmaq və qlobal düşünmək üçün heç olmazsa, özünüzə bir gün ayırın. Dəyərmi bütün bunlara, düşünün?! Təəssüflər olsun ki, bəzi insanlara bir dünya azlıq edir. Dünya stabil həyatın əsasıdır. Bu, bütün ölkələrə və onların vətəndaşlarına aiddir. Sülh olduğu zamanda biz təhsil ala və işləyə bilirik, həm maddi, həm də ki, mənəvi cəhətdən inkişaf edə bilirik. Narahatlıq hiss etmədən sağlam ailə qura bilirik.

*Səhnəyə əlində göyərçin və şarlar tutmuş uşaqlar gəlir. Monitorda sülh rəmzi olan ağ göyərçinlər, müxtəlif sülhməramlı təşkilatların fəaliyyətini əks etdirən slayd nümayiş edilir. Uşaqlar birlikdə sülh nəğməsi oxuyurlar.*

**Sülh nəğməsi**

Dünyanın uşaqları!
Gəlin əl-ələ verək!
Ən hündür bir zirvədə
Sülh bayrağı yüksəldək!

Sülh bayrağı dalğalansın
Hər tərəfə sülh yaysın
Dünyadakı balalara
Sevincdən pay ayırsın!

Qoy dünyadakı uşaqlar
Həmişə gülsün, sevinsin,
Nə arzu etsə balalar
Yerinə yetsin arzular!

Mənim arzum budur Günəş,
Başımız üstündə olsun!
Gecələr sübhə qədər Ay,
Uşaqlara desin laylay!

Bir sehirli yağış yağsın
Dünyanı tərtəmiz etsin
Uşaqları sevməyənlər,
Çıxsın, dünyamızdan getsin!..

**I Oxucu:** Sülh – əmin-amanlıq, qurub yaratmaq dinclikdir.
**II Oxucu :** Sülh – azadlıq, bərabərlik və ədalətdir.
**III Oxucu:** Sülh – hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin arzu etdiyi ən böyük dəyərlərdən biridir.

**IV Oxucu:** Sülh poeziyamızın daimi mövzusudur.
**V Oxucu:** Sülh – balaların gülüşü, qəhqəhəsidir.
**VI Oxucu:** Sülh – dünyanın taleyi üçün nigaran qalmayan qocalıqdır.

**Aparıcı:** Sülhün carçıları isə gələcəyimiz olan uşaqlardır. Yəni uşaqlar həmişə açıq səma altında atalı-analı yaşamaq arzusundadırlar.

*(Uşaqlar əllərindəki şarı və göyərçini havaya buraxırlar.*

**Aparıcı:** İndidə uşaqların ifasında İnsanları Sülhə səsləyən şairimiz Hüseyn Arifin – "Mən Sülhə səs verirəm" şeirinə qulaq asaq:

*( Səhnəyə oxucular daxil olur.)*

**I Oxucu:** Mən sülhə səs verirəm,
Milyonlardan biritək-
Qoy bir daha ordular
Üz-üzə dayanmasın.

**II Oxucu:** Mən sülhə səs verirəm,-
Bombaları səsindən
Beşikdəki körpələr
Hıçqırıb oyanmasın.

**I Oxucu:** Mən sülhə səs verirəm,-
Böyük kəndlər,şəhərlər
Viran olub qalmasın
Tüstü-duman içində.

## Ədəbiyyat siyahısı

Kitablarda Avropa şurası və Azərbaycan : Sülh, əminamanlıq və demokratiya naminə. - Bakı : [s. n.], 2001. - 239 s.

Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi : Ali məktəblər üçün dərslik. - Bakı : Çaşıoğlu, 2008. - 672 s. : xəritə, rəngli foto, foto. 21 sm + 1 el. opt. disk (CD-ROM).

İbadov R. Avropa İttifaqının əsasları. - Bakı : Rza İbadov, 2004. - 212 s.

XXI Əsrə Sülh Körpüsü : Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfəri 17-20 noyabr 1999-cu il. - Bakı : [s. n.], 2000. - 212 s.

Uşaq hüquqları üzrə pilləli tədrislə bağlı seçilmiş mövzular : Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 noyabr 2009-cu il tarixli 1231 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir / Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombusman). - Bakı : [s. n.], 2009. - 288 s.

Sülh və təhlükəsizlik naminə : Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri (22-27 aprel 1999-cu il). - Turkiye : Nurol printing & Packaging industry inc., 2000. - 231 s.

Vaal T (De). Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında .. - Bakı : İlay MMC, 2008. - 344 s. : rəngli foto.

Yurdda sülh, cahanda sülh uğrunda : Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri 31 oktyabr-2 noyabr 1999-cu il. - Turkiye : Nurol printing & Packaging industry inc., 2000. - 257 s. : rəngli foto.- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il Atatürk Beynəxalq Sülh Mükafatına layiq görülmüşdür.

**Dövri mətbuatda**

Abdullayev M. Azərbaycanın bu günü və gələcəyi üçün heç bir təhlükə yoxdur : Prezident İlham Əliyev: Azərbaycan çox təhlükəsiz ölkədir, əhalimiz sülh, əminamanlıq şəraitində yaşayır və gələcək inkişaf üçün də yaxşı perspektivlər var // Yeni Azərbaycan. - 2017. - 23 avqust. - № 151. - S. 2.

Cəfərli R. İlham Əliyev dünyanı sülhə, İslam ölkələrini isə həmrəyliyə çağırır : IV İslam Həmrəyliyi Oyunlarına 33 gün qaldı // Azərbaycan : qəzet. - 2017. - 9 aprel. - № 73. - S. 1.

Cəfərli S. Sülhə məhəbbət. müharibəyə nifrət : Gənclər vətənpərvərlik ruhda tərbiyyə olunurlar // Azərbaycan Müəllimi. - 2017. - 4 avqust. - № 29. - S. 6.

Hacalıyev E. Tolerantlığın və multikulturalizmin Azərbaycan modeli : Prezident İlham Əliyevin İslam həmrəyliyinin möhkəmləndirilməsi təşəbbüsü dünyada sülhün, əmin-amanlığın bərqərar olunması üçün mühüm imkanlar açır // Azərbaycan : qəzet. - 2017. - 26 may. - № 112. - S. 1, 5.

Xudiyev N. İslam həmrəyliyi birlik, əməkdaşlıq və sülhə çağırış missiyasına xidmət edir // Xalq qəzeti. - 2017. - 2 may. - № 92. - S. 8.

Mirzəbəyli İ. İlk respublikamız demokratik dəyərlərə, insan hüquqlarına, sülh və əminamanlığa zəmin yaradan dövlət kimi tarixə düşmüşdür // Xalq qəzeti. - 2017. - 26 may. - № 112. - S. 5.

Bədii ədəbiyyat Ağ göyərçin : Azərbaycan nağılı = The white dove : An Azerbaijani fairy tale. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2002. - 16 s. - (Yurdun Nağıl Bağı).

Bünyadzadə A. Şirniyyat atan silahlar // Üç nağıl. – Bakı : Təhsil, 2009. – S. 6-9.

Cəmil Ə. Göyərçin : şeir // Şeirlər və məqalələr. 2 clddə. – Bakı : Şərq-Qərb, 2015. – C.1. – S.185.

İbrahimova G. Sülh nəğməsi [Elektron resurs].Disk 12 : Şeirlər, nağıllar və hekayələr. - Bakı : [s. n.], 2015. - 1 el. opt. disk (CD-DA).

Səfərova N. Sülh quşu // Ömrümün əvəzsiz vəfadarı : poeziya. - Bakı : MBM, 2015. – S.76-80

# Mən Sülhə səs verirəm

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:  33
Çapa imzalanmışdır:17.09.2020
Tirajı:100
Pulsuz